# Korrupsiya Və Onunla Mübarizənin Təşkili: Milli Və Beynəlxalq Təcrübə

**Elxan Heydərli**
*Bakı Dövlət Universiteti,*
*Avropa hüququ, Magistr, I kurs*

Açar sözlər: Korrupsiya, korrupsiya cinayətinin tərkib elementləri, korrupsiya ilə mübarizə, Korrupsiyaya qarşı Konvensiya, GRECO, Beynəlxalq Şəffaflıq Təşkilatı

Annotasiya: Məqalədə müasir dövrün ən əhəmiyyətli məsələlərindən olan korrupsiya mövzusuna toxunulmuş, korrupsiyanın nə demək olduğu, onun fəsadları, beynəlxalq sənədlərdə və milli qanunvericilikdə korrupsiya anlayışı və onun elementlərinin nə olduğu göstərilmiş, korrupsiya ilə mübarizənin təşkilinin mühüm ünsürləri, bu sahədə dövlətlərin milli təcrübəsinin və beynəlxalq praktikanın öyrənilməsi və müsbət lahiyələrin Azərbaycanda tətbiqi imkanları araşdırılmışdır.

Məqalə hazırlanarkən sistemli yanaşma, təhlil, təsnifat, müqayisəli hüquq kimi elmi metodlardan istifadə edilmişdir.

Giriş

Hal-hazırda dövlətlərin əksəriyyətində yaşanan əsas problemlərdən biri də korrupsiya ilə əlaqədardır. Çünki korrupsiya cəmiyyətin əsas özülünü korroziyaya uğradır. Korrupsiya vətəndaşların siyasi və iqtisadi sistemə, dövlət institutlarına və ölkə liderlərinə olan inamını sarsıdır, insanların azadlığını, sağlamlığını, hətta həyatını itirməsinə səbəb olur. Belə ciddi bir problemin mövcudluğu dünya ölkələrinin bir araya gəlməsi və onunla birlikdə mübarizənin təşviqinə səbəb olmuşdur. 31 oktyabr 2003-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin iclasında Korrupsiyaya qarşı Konvensiyanın qəbul edilməsi, Avropa Şurasının nəzdində fəaliyyət göstərən Korrupsiya əleyhinə Dövlətlər Birliyinin (GRECO), Beynəlxalq Anti-Korrupsiya Akademiyasının, Beynəlxalq Şəffaflıq Təşkilatının (Transparency İnternational) və sair bu kimi təşkilatların yaradılması bu mübarizənin sübutudur. Korrupsiyaya qarşı mübarizə təkcə beynəlxalq səviyyədə deyil, həm də dövlətdaxili səviyyədə həyata keçirilir. Milli qanunvericiliklərdə korrupsiya əməlinin kriminallaşdırılması və bununla məşğul olan xüsusi komitə və komissiyaların yaradılması dövlətlərin bu sahədəki səylərindən xəbər verir.

Lakin bütün bunlar bəzən heç də effektiv olmur, qanunlar və həmin qurumlar sadəcə formal olaraq mövcud olan institutlar kimi kağız üzərində qalırlar. Korrupsiya ilə səmərəli mübarizənin təşkili üçün ən əsas məsələ əhalinin bu barədə məlumatlandırılması, insanların bununla bağlı biliklərinin artırılması istiqamətində addımların atılması ilə əlaqədardır.

1. Korrupsiya nədir və onun əsas ünsürləri hansılardır?

Bildiyimiz kimi, hər hansı problemlə mübarizənin təşkili üçün ilk öncə həmin problemin nə olduğunu, fundamentində hansı səbəblərin durduğunu araşdırmaq lazımdır. Korrupsiyanın mövcudluğuna dair tarixi sübutlar hələ bəşər cəmiyyətinin qədim dövrlərinə qədər gedib çıxır. Qədim dövlətlərdə xırda rüşvətdən başlayaraq, önəmli dövlət postlarının tutulması üçün yüklü məbləğlərdə pul vəsaitlərinin hakimiyyət səlahiyyətlərini həyata keçirən şəxslərə verilməsi formalarına kimi korrupsiyanın müxtəlif formaları mövcud olmuş, sivilizasiya inkişaf etdikcə korrupsiya da irəli getmiş, zamanın tələblərinə uyğunlaşmışdır. Nəzəriyyəçilər korrupsiyanın iki əsas formasının olduğunu söyləyirlər. Bunlardan birincisi daha geniş yayılmış rüşvət formasında olan admi-

nitrativ və ya inzibati korrupsiya adlandırılan formadır. Korrupsiyanın digər forması isə siyasi və ya "Dövlət korrupsiyası"-dır ki, burada dövlətin mühüm idarəetmə vəzifələrini tutan şəxslər milli qanunvericilikdən və müxtəlif lahiyələrdən istifadə edərək dövlət büdcəsinin öz ciblərinə axmasına nail olurlar. Tarixdə bu növ korrupsiyaya ən bariz nümunələr kimi Fransua Duvalierin idarəçiliyində Haiti, Ferdinand Edralin Markosun tabeliyində Filippin, Mobutu Sese Sekonun zamanında Konqo-Zair, Kwame Nkrumanın prezidentliyi dövründə Nigeriya və İdi Aminin idarəetməsi zamanı Uqanda göstərilir . Bəs korrupsiya nədir? Konvensiyanı təbliğ edən və onun üzv olmuş dövlətlər tərəfindən icrasına nəzarət edən BMT-nin Cinayət və Narkotik Maddələrlə Mübarizə Ofisinin təşəbbüsü ilə qəbul edilmiş BMT Korrupsiyaya qarşı Konvensiyasının ümumi təhlilindən belə bir nəticəyə gəlmək olar ki, korrupsiya dedikdə, dövlət-hakimiyyət səlahiyyətləri etibar olunmuş şəxs tərəfindən şəxsi gəlir məqsədilə törədilən qeyri-etik və qeyri-vicdani hərəkət başa düşülür. Azərbaycan Respubublikasının Milli Məclisi tərəfindən 2004-cü ildə qəbul edilmiş Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 1-ci maddəsində göstərilir ki, korrupsiya vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır . Transparency İnterntaional-ın sadələşdirilmiş dili ilə desək, korrupsiya şəxs tərəfindən özəl gəlir məqsədilə ona etibar edilmiş səlahiyyətdən sui-istifadə etməsidir . Verilmiş anlayışların hamısı üçün ortaq olan bir neçə cəhət var. İlk olaraq, adı çəkilən əməllərin vəzifəli şəxs tərəfindən törədilməsi önəmli ünsürlərdəndir. Azərbaycan Respublikasının 2000-ci ildən qüvvəyə minmiş Cinayət Məcəlləsinin korrupsiya və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə həsr olunmuş otuz üçüncü fəslində "Vəzifə səlahiyyətlərindən sui-istifadə" adlanan 308-ci maddəsinin qeydində "vəzifəli şəxs" anlayışının əhatə dairəsinə hansı şəxslərin düşdüyü göstərilmişdir. Hakimiyyət nümayəndələri, dövlət və bələdiyyə qulluqçuları, bələdiyyə üzvləri, dövlət və bələdiyyə müəssisələrinin, təşkilatlarının rəhbərləri və qərar qəbul etmə səlahiyyətinə malik olan digər şəxsləri, xarici dövlətlərin yuxarıda adı çəkilən mövqelərdə çalışan şəxsləri, habelə beynəlxalq təşkilatların və məhkəmələrin üzvləri və hakimləri bu kateqoriya şəxslər sırasına daxil edilmişdir . Oxşar yanaşma Azərbaycanın da qoşulduğu BMT-nin Korrupsiyaya qarşı Konvensiyasında da əks olunmuşdur. Konvensiyada vəzifəli şəxs anlayışı yerinə "dövlət rəsmisi" ifadəsi işlədilir. Dövlət rəsmisi adı altında Konvensiyaya üzv dövlətin qanunverici, icra və məhkəmə orqanlarında, tutduğu vəzifənin dövlət orqanları sistemindəki yerindən asılı olmayaraq, daimi və ya müvəqqəti, əvəzli və ya əvəzsiz çalışan və müvafiq vəzifəyə təyin olunmuş və ya seçilmiş şəxslər nəzərdə tutulur. Bununla yanaşı, Konvensiyada göstərilir ki, dövlət rəsmisi anlayışına həmiçinin, üzv dövlətlərin daxili qanunvericiliyinə əsasən bu kateqoriyaya daxil olan digər şəxslər də aid edilir .

Korrupsiya əməlinin özü isə çoxşaxəlidir. Həm Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin otuz üçüncü fəslinə əsasən, həm də BMT-nin yuxarıda adı çəkilən Konvensiyasına görə korrupsiya əməlləri sırasına həm rüşvət vermə (aktiv rüşvətxorluq) və rüşvət alma (passiv rüşvətxorluq), həm vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə ( nüfuz alveri), həm də vəzifə səlahiyyətlərindən sui-istifadə aid edilir. Bundan başqa, Korrupsiyaya qarşı Konvensiyada birbaşa əks olunsa da, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq fəslində olmayıb digər fəsillərində göstərilən çirkli pulların yuyulması, mənimsəmə və ya israf etmə kimi cinayətlər dəkorrupsiya cinayətləri sırasına daxil edilir. Sonuncu halda bu əməl Konvensiyaya əsasən o halda korrupsiya cinayəti hesab edilir ki, vəzifəli şəxs yerinə yetirdiyi funksiya ilə əlaqədar ona etibar edilmiş əmlakı mənimsəmiş olsun.

Bütün bu cinayətlərin digər bir oxşar cəhəti isə həmin cinayəti törədərkən vəzifəli şəxsin və ya vəzifəli şəxsə müvafiq cinayət qarşılığında pul məbləğini vəd edən şəxsin məqsədi ilə əlaqədardır. Fransa Respublikasının Cinayət Məcəlləsinin 433-1-ci , Albaniya Respublikasının Cinayət Məcəllləsnin 164/a, 244 və 259-cu , Latviya Respublikasının Cinayət

Məcəlləsinin 323-cü maddələrində olduğu kimi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də korrupsiya cinayətlərinin hansı məqsədlərlə törədildiyi aydın şəkildə göstərilmişdir. Belə ki, məcəllənin müvafiq maddələrinin ümumi təhlilindən belə bir nəticəyə gəlmək olar ki, bu cinayətlərin törədilməsində əsas məqsəd vəzifəli şəxsin özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etməsidir. Bu üstünlük həmin şəxsin digərlərinə nisbətdə qanunsuz olaraq əlverişli vəziyyətə gətirilməsindən tutmuş,şəxsin lehinə qanunsuz qərarın qəbul edilməsinə kimi müxtəlif hərəkətlərlə müşahidə olunur. Bu hərəkətləri vəzifəli şəxsin tamah niyyəti ilə yerinə yetirdiyini də unutmamaq lazımdır. Bütün bu elementlər BMT-nin Korrupsiyaya qarşı Konvensiyasında da sadalanmışdır.

Məsələyə klassik cinayət hüququ mövqeyindən yanaşaraq korrupsiya cinayətlərinə daxil olan əməllərin tərkib elementləri kimi aşağıdakıları göstərə bilərik:

1) Korrupsiya cinayətlərinin ictimai təhlükəliliyi ondan ibarətdir ki, hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdır, dövlət orqanlarını əhali arasında hörmətdən və nüfuzdan salır, vətəndaşların hüquq və mənafelərinin, bərabərlik və ədalət prinsiplərinin pozulası ilə nəticələnir;

2) Bu cinayətlərin obyekti dövlət hakimiyyətinin, yerli özünüidarəetmə, kommersiya və qeyri-kommersiya qurumlarında qulluğun həyata keçirilməsi ilə əlaqədar münasibətlərdir. Cinayətin predmeti isə maddi və sair neətlər, imtiyaz və güzəştlərdir.

3) Korrupsiya cinayətlərinin obyektiv cəhətini bir qayda olaraq, vəzifəli şəxs tərəfindən səlahiyyətlərinin icrası ilə əlaqədar olaraq, habelə himayədarlıq və laqeydlik müqabilində özü və ya üçüncü şəxslər üçün maddi və sair nemətin, imtiyaz və ya güzəştin istənilməsi, alınması, və ya vəzifəli şəxsə yuxarıda sadalanan cinayətin predmetinin verilməsi və ya onlarla ilə təklif və ya vəd edilməsi təşkil edir.

4) Korrupsiya cinayətlərinin əsas subyekti maddi və sair neməti, imtiyaz və güzəşti qəbul edən vəzifəli şəxsdir. “Vəzifəli şəxs” ifadəsi altında kimlərin nəzərdə tutulduğunu bilmək üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeydinə diqqət yetirmək kifayətdir ki, bu şəxsləri dairəsi yuxarıda göstərilmişdir. Bununla yanaşı, korrupsiya cinayətlərinin digər bir subyekti törədilmiş cinayət əməlindən asılı olaraq vəzifəli şəxsi ələ almaq istəyən 16 yaşına çatmış anlaqlı fiziki şəxsdir.

5) Nəhayət, korrupsiya cinayətlərinin subyektiv cəhətinə gəldikdə isə bir daha vurğulamaq lazımdır ki, bu cinayətlər xüsusi niyyətlə birbaşa qəsd yolu ilə törədilir .

2.Korrupsiyaya qarşı mübarizə sahəsində milli və beynəlxalq təcrübə

Korrupsiya əməli nə qədər ciddi və sivil cəmiyyətin dayaqlarını sarsıdan bir cinayət əməli olsa da, onun qarşısının tam şəkildə alınmasına hələ nail olunmamışdır. Bununla belə, bu cinayət əməlinin törədilməsinin azaldılması üçün beynəlxalq səviyyədə atılan bir sıra addımları da qiymətləndirməmək düzgün olmazdı. Bu tədbirlərdən ən önəmlisi, fikrimizcə, Birləşmiş Millətlər Təşkilatı səviyyəsində Korrupsiyaya qarşı Konvensiyanın qəbul edilməsidir. 2003-cü ildə qəbul edilən və artıq 180 ölkənin qoşulduğu bu Konvensiyanın korrupsiyaya qarşı mübarizə sahəsindəki rolu danılmazdır. 8 fəsil, 71 maddədən ibarət olan bu Konvensiyanın əsas özəyi bu beynəlxalq müqaviləyə qoşulmuş dövlətlərin öhdəlikləri ilə əlaqədar olan hissəsidir. Konvensiya müqaviləyə tərəf olan ölkələr üzərinə müvafiq konvensiyaya əsasən korrupsiya cinayəti hesab olunan əməlləri milli cinayət qanunvericiliyinə daxil etmək, həmin əməllər törədildiyi təqdirdə hansı şəxslərin və hansı hallarda cinayət məsuliyyətindən azad edildiyini müəyyənləşdirmək və sair bu kimi öhdəliklər qoymuş, habelə milli kadrları müvafiq bilik və informasiya ilə təmin etmək, korrupsiyaya qarşı mübarizə sahəsində dövlətləri beynəlxalq əməkdaşlıq etməyə sövq etmişdir. Bundan başqa, Konvensiyanın 63-cü maddəsi dövlətlərin konvensiyanı implementasiya etməsini təmin etmək, korrupsiyaya qarşı birgə mübarizəni təşviq və təmin etmək məqsədilə Üzv dövlətlərin Konfransının yaradılmasını vurğulayır . Konfransın ilk iclası 2006-cı il 10-14 dekabr tarixlərində İordaniyanın paytaxtı Amman şəhərində keçirilmiş, sonradan 2008, 2009,2011 və 2013-cü illərdə növbəti yığıncaqlar reallaşdırılmışdır. Son dəfə Konfrans 2015-ci il 2-6 noyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində toplanmışdır.

Konfransın növbəti yığıncağının bu il, yəni 2017-ci ilin noyabr ayının 6-10-unda Avstriyanın paytaxtı Vyana şəhərində baş tutması gözlənilir. Konfrans hər iclasdan sonra üzv dövlətlərə tövsiyyələr verir, qətnamələr qəbul edir.

Azərbaycan Konvensiyaya 2004-cü ilin fevralında qoşulmuş, 2005-ci ilin noyabrında isə ratifikasiya etmişdir. Konvensiyaya qoşulduqdan sonra Azərbaycan Respublikası öz üzərinə düşən öhdəlikləri yerinə yetirmək üçün öz imkanı daxilində olan bütün hərəkətləri etmişdir. 2004-cü ildə Korrupsiyaya qarşı mübarizə haqqında qanun, 2004-2006-cı illər üçün Korrupsiyaya qarşı mübarizə sahəsində Dövlət Proqramı qəbul edilmişdir. Bunlarla yanaşı, 2004-cü ildə həm Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, həm də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi yaradılmışdır.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilib və fəaliyyət göstərir. Komissiyanın 5 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilir.Komissiyanın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Komissiyanın sədri həyata keçirir. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə onun iclaslarında baxılır. Komissiyanın iclasları mütəmadi olaraq, lakin üç ayda bir dəfədən az olmayaraq keçirilir .

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarə korrupsiya ilə bağlı cinayətlər üzrə həyata keçirilən ibtidai istintaq sahəsində ixtisaslaşmış qurumdur və Azərbaycan Respublikasının Baş prokuroruna tabedir. Baş İdarənin əsas vəzifələrinə korrupsiya ilə əlaqədar hüquqpozmalara dair daxil olmuş məlumatlara baxmaq və araşdırma aparmaq, korrupsiya ilə bağlı cinayətlərlə əlaqədar cinayət işi başlamaq və ibtidai istintaq aparmaq, korrupsiya ilə bağlı cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək, korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış tədbirlərini İdarənin yazılı tapşırığı əsasında əməliyyat-axtarış fəaliyyətinin digər subyektləri yerinə yetirdikdə bu sahədə qanunların icrasına nəzarəti həyata keçirmək, korrupsiya ilə bağlı cinayətlərin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək, korrupsiyaya qarşı mübarizənin vəziyyətini öyrənmək, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları toplamaq, təhlil etmək, ümumiləşdirmək və korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırmaq, korrupsiya ilə bağlı cinayətlərin ibtidai istintaqı, habelə həmin işlərin məhkəmə baxışı zamanı cinayət prosesində iştirak edən şahidlərin, zərərçəkmiş, təqsirləndirilən və digər şəxslərin təhlükəsizliyi üçün tədbirlərin görülməsini təmin etmək, korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər barədə Baş prokuror vasitəsilə Azərbaycan Respublikasının Prezidentinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya mütəmadi olaraq məlumat vermək, korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları və digər qurumlarla əməkdaşlıq etmək, görülən tədbirlər barədə ictimaiyyəti məlumatlandırmaq və fəaliyyətində aşkarlığı təmin etmək və s. daxildir .

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın digər bir forması da Avropa Şurası tərəfindən 1999-cu ildə əsası qoyulan və Şuraya üzv dövlətlərin təşkilatın anti-korrupsiya siyasəti standartları ilə uyğunluğunu monitorinq etmək üçün yaradılan GRECO-dur (Korrupsiya əleyhinə Dövlətlər Qrupu). GRECO-nun diqqət cəlb edən cəhətlərindən biri də bu Qrupa təkcə AŞ-na üzv olan dövlətlər deyil, həm də Şuranın Baş Katibinə bildirmiş və müqaviləni imzalamış digər dövlətlərin də üzv olması ilə əlaqədardır. Hazırda Qrupun 49 üzvü var ki, bunların 47-si Avropa Şurasına üzv dövlətlər, yerdə qalan ikisi isə ABŞ və Belarusdur. GRECO-nun özü üzv dövlətlərdəki konkret korrupsiya hallarının deyil, ümumilikdə ölkədəki vəziyyətin qiymətləndirilməsini aparır. Bu qiymətləndirmə prosesində həm GRECO-un məsul şəxsləri, həm milli hakimiyyət orqanları, həm də Qrupa üzv olan digər dövlətlər çıxış edir. GRECO hər bir dövlət üzrə iki növ hesabat hazırlayır. Bunlardan biri qiymətləndirmə hesabatıdır (Evaluation report) ki, bu hesabatda ölkədəki vəziyyət analiz edilir, problemlərlə bağlı

hökumətin islahat aparmalı olduğu sahələr vurğulanır və müvafiq tövsiyyələr edilir. Digər bir hesabat isə uyğunluq hesabatıdır (compliance report) ki, burada əvvəlki qiymətləndirmə hesabatında dövlətə verilmiş məsləhətlərə hansı səviyyədə əməl edildiyi və nə kimi işlər görüldüyü göstərilir. Qərargahı Strasburqda yerləşən GRECO, həmçinin Avropa Şurasının 2002-ci ildən qüvvəyə minən Korrupsiya haqqında Cinayət hüquqi Konvensiyasının və 2003-cü ildən qüvvəyə minən Korrupsiya haqqında Mülki hüquqi Konvensiyasının üzv dövlətlər tərəfindən implementasiyasının monitorinqini aparır.

Azərbaycan Respublikası 2004-cü ildə GRECO-ya qoşulub və Qrup tərəfindən verilən təkliflərin yerinə yetirilməsinə çalışır. GRECO Azərbaycanla bağlı ilk qiymətləndirmə hesabatını 2005-ci ildə təqdim etmişdir, sonra yenidən 2010-cu ildə ikinci qiymətləndirmə hesabatı nəşr edilmiş, bu hesabatla əlaqədar 2013-cü ildə bir, 2016-ci ildə isə digər tövsiyyələrə uyma hesabatı yayımlanmışdır. GRECO özünün 2013-cü ildəki hesabatında Azərbaycanın 9 tövsiyədən 7-sini uğurla, 2-ni isə qismən yerinə yetirdiyini vurğulamışdır . GRECO-nun Azərbaycan Respublikası ilə bağlı sonuncu qiymətləndirmə hesabatı 2015-ci ildə nəşr edilmiş və bu hesabatla bağlı uyğunluq hesabatı 2017-ci il mart ayının 17-də təqdim olunmuşdur. Hesabatda 2015-ci ildə Azərbaycana parlamentarilər, hakimlər və dövlət ittihamçıları üçün ayrı-ayrı kateqoriyalar altında verilmiş tövsiyyələrə necə riayət olunması ilə bağlı dəyərləndirmə aparılmışdır. Hesabatda göstərilir ki, Parlamentlə bağlı edilmiş tövsiyyələrin 2-si qismən yerinə yetirilmiş, 2-si yerinə yetirilməmiş, hakimlərlə əlaqədar olan tövsiyyələrin 2-si qismən, 4-ü tam şəkildə icra edilmiş, yalnız 1-i reallaşdırılmamışdır. Dövlət ittihamçıları ilə bağlı tövsiyyələrin 7-si həyata keçirilmiş, 3-ü isə hələ ki implementasiya olunmamışdır . Azərbaycan korrupsiyaya qarşı hüquqi mübarizəni gücləndirmək üçün 2004-cü il iyun ayının 1-də AŞ-nın Korrupsiya haqqında həm Cinayət, həm də Mülki hüquqi Konvensiyasına üzv olmuşdur.

Bütün bu tədbirlər təbii ki, mütərəqqi addımlar hesab olunur. Ancaq fikrimizcə, korrupsiyaya qarşı ən güclü mübarizə məhz sivil cəmiyyətin özü ilə bərabər ona qarşı savaşmaqdır. Bu baxımdan vətəndaşların korrupsiya haqqında məlumatlandırılması, onların dövlət istitutlarının fəaliyyətinin izlənilməsi və monitorinqində iştirakı xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə işləyən ən güclü təşkilatlardan birinin Beynəlxalq Şəffalıq Təşkilatı (Transparency İnternational) olduğunu deyə bilərik. Əsası 1993-cü ildə Berlin şəhərində qoyulan Transparency İnternational korrupsiyaya qarşı fəaliyyət göstərən beynəlxalq səviyyəli bir qeyri-hökumət təşkilatıdır. Onun yerli bölməsi olan "Şəffaflıq Azərbaycan" isə 2000-ci ildə təsis olunmuşdur. Transparency İnternational, əsasən, ictimaiyyətin bilik səviyyəsinin artırılması, işgüzar etika sahəsində işləyir və Azərbaycanda və dünyada korrupsiyanın səbəblərini, formalarını və bu təhlükəli ictimai fenomenin azaldılması yollarını araşdırır. Təşkilat həmçinin korrupsiyanın şahidləri və qurbanları olan sıravi fiziki şəxslərə hüquqi yardım göstərir və hökumət strukturlarına siyasi və qanunvericilik aktlarının hazırlanmasında köməklik edir .

İstərdik ki, bir az da Beynəlxalq Şəffaflıq Təşkilatının dünyanın müxtəlif ölkələrdə reallaşdırdığı layihələrdən bəhs edək. Bu layihələrdən ən maraqlılarından biri "Şəffaflıq Braziliya" təşkilatı tərəfindən həyata keçirilən "Korrupsiya əleyhinə reklamlar" olmuşdur. Belə ki, "Şəffaflıq Braziliya" San-Pauloda yerləşən radio stansiyalardan birinə təklif etmişdi ki, korrupsiya barəsində insanların biliklərini artırmaq və bu sahədə insanların davranışını dəyişmək üçün müntəzəm şəkildə qısa anti-korrupsiya reklamları efirdə yerləşdirilsin. Müraciət olunmuş Eldorado radiostansiyası yalnız San-Pauloda yayımlanırdı və əsas hədəf kütləsi orta təbəqənin ən varlı hissəsi idi. "Korrupsiyaya yox de!" adlı bu təşəbbüs 2001-ci ildə efirə getdi. Gün ərzində 4 dəfə yayımlanan bu reklamların ikisi günün ən çox dinləyici olan zamanına düşürdü. Digər radiostansiyalar bu təşəbbüsə ilk əvvəl soyuq yanaşsalar da, sonradan 9 başqa radiostansiya da bu kampaniyaya qoşulmuşdu. Bu təşəbbüs dinləyicilər tərəfindən müsbət qarşılanmışdı .

Cəmiyyətdə korrupsiyanın səbəbləri və onların aradan qaldırılması üsulları haqqında məlumat çatışmazlığının və ictimai passivliyin qarşısının alınması üçün 2000-ci ildən reallaşdırılan bir layihə isə "Şəffaflıq Slovakiya" tərəfindən təşkil olunan "İctimaiyyəti məlumatlandırılması kampaniyası" olmuşdur.

24 Slovakiya eksperti təlimlərdə istifadə olunacaq anti-korrupsiya vasitəsi yaratdı. Məsələn, onlar dövlət orqanları və bələdiyyələrdə çalışan məmurlara təsir edən maraqların toqquşmasından tutmuş, dövlət maliyyəsi və dövlət idarəçiliyi məsələlərinədək müxtəlif mövzular haqqında mətnlər hazırladılar və jurnalistlər, qeyri-hökumət təşkilatları (QHT), dövlət qulluqçuları və parlament üzvlərinin köməkçiləri üçün seminarlar keçirdilər. Həmçinin, müəllimlər üçün də treninqlər təşkil edildi və ekspertlər tərəfindən hazırlanmış mətnlər bir sıra slovak məktəblərində pilot proqramlarda istifadə olundu. Layihənin uğur qazandığı söylənilə bilər .

Dövlət institutlarının monitorinqi ilə bağlı iki lahiyəyə toxunmaq istərdik. Bunlardan biri Beynəlxalq Şəffaflıq Təşkilatının Argentina bölməsi olan Poder Ciudadano Fondu tərəfindən gerçəkləşdirilən "Senatın monitorinqi" olmuşdur. Argentina Senatının institusional baxımdan güclü və zəif cəhətlərinin monitorinqi bu lahiyənin məqsədini təşkil etmişdir. Təşəbbüs vasitəsilə ictimai informasiyaya sərbəst çıxış, Senatın fəaliyyətində vətəndaşların iştirakını dəstəkləmək və qanun yaradıcılarının məsuliyyətini yüksəltmək nəzərdə tutulmuşdu. Belə bir lahiyə həm parlament, həm də başqa orqanlar səviyyəsində fərdi iştirak, eləcə də vətəndaşların onları və akademik dairələri nəzarətdə saxlaması mənasına gəlirdi. 2001-ci ildən həyata keçirilən tədbirlər sisteminə vətəndaşların plenar iclaslarda və komissiyaların iclaslarında iştirakı, lahiyə haqqında mütəmadi yeniliklərlə informasiya bülletenlərinin nəşri, monitorinq zamanı müşahidə edilmiş hallar barədə hesabatların hazırlanması və sair hərəkətlər daxil idi. Bu lahiyə çox uğurlu alınmışdı .

Dövlət orqanları ilə bağlı olan digər bir lahiyə isə Transparency İnternational-ın Qazaxıstandakı bölməsi tərəfindən 2000-2001-ci illər ərzində həyata keçirilən "Korrupsiyasız məhkəmələr" lahiyəsi olmuşdur. Məqsəd məhkəmə səviyyəsində korrupsiyanın səbəb və səviyyəsini müəyyən etmək, məhkəmə prosesində müxtəlif rəsmi şəxslərin rolunun qiymətləndirilməsi, islahatlar üçün təkliflərin hazırlanması, hüquq sistemində korrupsiyaya şərait yaradan boşluqların doldurulmasından ibarət olmuşdur. Lahiyə çərçivəsində hakimlər, prokurorlar, vəkillər, müştərilər və jurnalistlər arasında sorğu təşkil edilmiş, dəyirmi masalar keçirilmişdir. Lahiyənin sonunda "Korrupsiyasız məhkəmələr" adlı kitabça da çap edilmişdir .

Nəticə

XXI əsrdə insanlığın bir çox problemlərin öhdəsindən gələrək sivilləşdiyini desək də, hal-hazırda bəşəriyyət korrupsiya kimi bəzi ciddi məsələlərin aradan qaldırılmasında ilişib qalır. Təbii ki, ideal dövlət olmadığı kimi, ideal cəmiyyət də yoxdur. Bununla belə, daha parlaq gələcəyə irəliləmək üçün birlikdə əlimizdən gələni etməli, korrupsiyaya və digər hüquq pozuntularına qarşı  mübarizə aparmalıyıq. Yuxarıda göstərilən nümunələr də sübut edir ki, birgə səylər nəticəsində daha yaxşı nəticələr əldə etmək olar. Xüsusilə yuxarıda adları çəkilən lahiyələrin Azərbaycanda tətbiq olunacağı və əhalinin korrupsiya və onunla mübarizə barəsində biliklərinin artırlacağı təqdirdə vətəndaş cəmiyyəti yaratmağa doğru bir addım da irəliləmiş olarıq. Bundan əlavə, Azərbaycan Respublikası hakimiyyət orqanları tərəfindən korrupsiyaya qarşı atılmış addımlar müsbət qarşılanır, GRECO-nun verdiyi tövsiyyələr tam şəkildə implementasiya olunacağı təqdirdə daha yaxşı nəticələrin əldə olunacağı mütləqdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, http://www.e-qanun.az/code/11
2. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu http://www.meclis.gov.az/?/az/legislation/view/638
3. F.Y.Səməndərov. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. 2014
4. Korrupsiyaya qarşı mübarizə vasitələri: Vətəndaş cəmiyyəti təcrübəsi və yeni yaranan strategiyalar, Beynəlxalq Şəffaflıq Təşkilatı (Transparency İnternational), 2002
5. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası. http://www.commission-anticorruption.gov.az/view.php?lang=az&menu
6. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübaarizə Baş İdarəsi http://www.genprosecutor.gov.az/content/40/bas-prokuror-yaninda-korrupsiyaya-qarsi-mubarize-bas-idaresi
7. Şəffaflıq Azərbaycan http://transparency.

az/bar%C9%99mizd%C9%99/
8. United Nations Convention Against Corruption, United Nations, New York, 2004
9. Penal Code of the Republic of France
10. Criminal Code of the Republic of Albania
11. Criminal Code of the Republic of Latvia
12. İnternational Encyclopedia of Social Sciences, Corruption, http://www.encyclopedia.com/social-sciences-and-law/political-science-and-government/political-science-terms-and-concepts-110
13. What is corruption, Transparency International http://www.transparency.org/what-is-corruption#define
14. What is GRECO?, Council of Europe, Directorate General Human Rights and Rule of Law, Group of States against Corruption http://www.coe.int/t/dghl/monitoring/greco/general/3.%20What%20is%20GRECO_en.asp/
15. Azerbaijan and Council of Europe http://www.mfa.gov.az/en/content/857
16. GRECO. Fourth Evaluation Round. Corruption prevention in respect of members of parliament, judges and prosecutors. Compliance Report Azerbaijan. https://rm.coe.int/16806fe9f2

